# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ ƏBƏDİ EDƏN TARİXİ ŞƏXSİYYƏTDİR

**Əyyub Kərimov**
*0000-0002-3664-4444, AzTU-nun*
*humanitar fənlər kafedrasının professoru*
*kerimoveyyyub@mail.ru*

## THE GREAT LEADER HAYDER ALIYEV IS A HISTORICAL PERSON WHO PERPETUALIZED THE INDEPENDENCE OF AZERBAIJAN

**Ayyub Kerimov**

**Summary**

In complex moments of history, every nation, especially a nation with a state and traditions of statehood, which unites various peoples and ethnic groups around it, needs a Leader who is able to determine the country's development strategy and who can arm the people with the right tactics. Heydar Aliyev was such a leader for the people of Azerbaijan.

The article examines the titanic work done by the great political figure to make Azerbaijan's independence irreversible, giving more importance to the third period, and presents conclusions.

**Key words:** Heydar Aliyev, leader, Azerbaijaniism, ideology, national and moral values, statesmanship, renaissance period of Azerbaijan.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ ƏBƏDİ EDƏN TARİXİ ŞƏXSİYYƏTDİR

**Əyyub Kərimov**

**Xülasə**

Tarixin mürəkkəb anlarında  Hər bir millətin xüsusən də dövləti və dövlətçilik ənənələri olan, ətrafında müxtəlif xalqları və etnik qruplar birləşdirən millətin ölkənin inkişaf strategiyasını müəyyənləşdirməyi bacaran, xalqı düzgün taktika ilə silahlandıra bilən Liderə zəruri ehtiyacı olur. Azərbaycan xalqı üçün belə bir Lider Ulu Öndər Heydər Əliyev olmuşdur. Onun siyasi sferada fəaliyyətini 3 dövrə bölmək olar:

1. Sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi dövr.
2. Sov İKP siyasi bürosunun üzvü kimi İttifaq miqyaslı fəaliyyəti.
3. Azərbaycan müstəqillik əldə etdikdən sonrakı fəaliyyəti.

Məqalədə üçüncü dövrə daha çox önəm verməklə Böyük siyasi xadimin Azərbaycanın müstəqilliyini dönməz etmək üçün gördüyü titanik işlər araşdırılır, qənaətlər təqdim olunur.

**Açar sözlər:** Heydər Əliyev, lider,  azərbaycançılıq, ideologiya, milli-mənəvi dəyərlər,  dovlətçilik, Azərbaycanın intibah dövrü

## ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ – ИСТОРИЧЕСКАЯ ЛИЧНОСТЬ, ОБЕСПЕЧИВШАЯ НЕЗАВИСИМОСТЬ АЗЕРБАЙДЖАНА

**Эйюб Керимов**

**Аннотация**

В сложные моменты истории каждому народу, особенно народу имеющая свои государство  и традиции государственности, объединяющему вокруг себя различные народы и этносы, необходим Вождь, способный определить стратегию развития страны и вооружить народ с правильной тактикой. Гейдар Алиев был таким лидером для азербайджанского народа.

В статье рассматривается титаническая работа, проделанная великим политическим деятелем, чтобы сделать независимость Азербайджана необратимой, придаются  большее значение третьему периоду и подводятся итоги.

**Ключевые слова:** Гейдар Алиев, лидер, азербайджанство, идеология, национально-нравственные ценности, государственность, возрождения Азербайджана.

**Giriş.** Ümummilli lider Heydər Əliyevi XX əsrin ictimai-siyasi fenomeni kimi artıq bütün dünya qəbul edir. Birmənalı demək olar ki, zəmanəmizin ən böyük azərbaycanlısı olan Heydər Əliyev həm millətin, həm də bəşəriyyətin dahilik meyarlarına cavab verən tarixi şəxsiyyətdir. Bəşəriyyət dahi dedikdə fenomenal şəxsi keyfiyyətlərlə bərabər ensiklopedik savadı, təfəkkürünün elmin və təcrübənin bütün istiqamətlərində yüksək dərəcədə fəaliyyətə qadir olması ilə yanaşı, ictimai maraqları şəxsi maraqlardan üstün tutmasını, yalnız öz xalqı üçün deyil, dünya, bəşəriyyət üçün gördüyü işlərin miqyasını əsas götürür.

Ulu öndərinm ictimai-siyasi və idarəçilik fəaliyyətini 3 dövrə bölmək olar:

1. Ulu Öndərin Sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi dövr

Uzaqgörən siyasətçi Heydər Əliyev hələ sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi dövrdə xalqımızın əvvəl-axır müstəqilliyə qovuşacağını duymuş, milli-müstəqillik şüurunun formalaşdırılması istiqamətində fundamental işlər görmüş, tariximizin, dilimizin, milli-mənəvi dəyərlərimizin, milli mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın təbliği və inkişafı istiqamətində dəyərli addımlar atmışdır.

Bildiyimiz kimi XX yüzilliyin 60-cı illərində Azərbaycanın sosial-iqtisadi həyatında dərin və uzunmüddətli böhranın bürüdüyü, olduqca mürəkkəb, ağır bir vəziyyətdə, respublikamız iqtisadi göstəricilərinə görə ittifaq respublikaları arasında xeyli geridə olduğu bir şəraitdə, 1969-cu ilin 14 iyulunda Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldi[5, s.5].

1969-cu il avqustun 5-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın plenumu oldu və burada o, Azərbaycanın sosial-iqtisadi böhran vəziyyətinin, uzun müddətli geriliyinin təhlilini verdi, səbəblərini açıqladı və çıxış yollarını müəyyənləşdirdi. Həmin vaxtdan da Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başladı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda iqtisadi dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüş mərhələsinin başlanğıcı qoyuldu. 1969-1982-ci illəri Azərbaycanın ictimai-siyasi, o cümlədən iqtisadi həyatında intibah dövrü kimi dəyərləndirə bilərik.

Belə ki, uzaqgörən lider mərkəzdəki nüfüzundan istifadə edərək respublikanın xalq təsərüfatının inkişaf etdirilməsini təmin etmək üçün, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin aşağıdakı müvafıq qərarlarının qəbul edilməsinə nail olmuşdur:

-1) 1970-ci il iyulun 23- də «Azərbaycan SSR xalq təsərrüfatının inkişaf etdirmək tədbirləri haqqında»;

-2) 1970-ci il iyulun 25-də «Azərbaycan SSR kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında»;

-3) 1975-ci il iyulun 9-da «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında»;

4) 1976-cı il iyulun 27-də «1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində»;

5) 1979- cu il fevralın 22-də «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında». Onu da vurğulamaq istərdim ki, bütün bunlara sadəcə qərarlar kimi yanaşmaq düzgün deyil. Bu həm də onların yerinə yetirilməsini təmin etmək üçün mərkəzi büdcədən Azərbaycanımıza külli miqdarda vəsait ayrılması demək idi.

1969-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektləri istifadəyə verilmiş, 630 min nəfərlik yeni iş yerləri açılmışdı. Bu illərdə sənaye istehsalı 2,7 dəfə, xalq tələbatı mallarının istehsalı 3 dəfə, kənd təsərrüfatı istehsalı 2,7 dəfə, taxıl, pambıq, üzüm, ipək, tərəvəz, tütün, bostançılıq məhsulları istehsalı sahəsində məhsuldarlıq 1,8-2,6 dəfə artmışdı[6] heyvandarlıqda artım 2,7 dəfə olmuşdur.

Ümummilli lider, ölkəmizi yüksək ixtisaslı kadrlarla təmin etmək üçün ölkə təhsil sistemini inkişaf etdirməklə yanaşı daha güclü maddi-texniki bazaya malik ittifaq əhəmiyyətli ali məktəblərə azərbaycan gənclərinin göndərilməsini təşviq və təşkil edirdi. Bu barədə 1982-ci ildə tələbə gənclərlə görüşdə demişdi. Moskvanın, Leninqradın və ölkənin digər şəhərlərinin ali məktəblərində Azərbaycan gənclərinin təhsil alması yüksək ixtisaslı kadrlar hazırlamaq işinin ən mühüm istiqamətlərindən biridir. Onuncu beşillikdə Respublika ölkənin əsas ali məktəblərinə 2976 tələbə göndərmişdir ki, bu da əvvəlki beş ildəkindən təqribən iki dəfə çoxdur. Ümumiyyətlə bu gün sovet ittifaqının 49 şəhərinin 170 ali məktəbində Azərbaycan gənclərinin 3500 nəfərdən çox nümayəndəsi oxuyur. Onlar xalq təsərrüfatının 80-dən çox sahəsi, respublika həyatının digər sahələri üçün 944 ixtisasa yiyələnirlər. Bu il biz başqa şəhərlərin ali məktəblərinə – 850 nəfər, o cümlədən birinci kursa 737 nəfər oğlan və qız göndəririk [3].

2. Sov. İKP siyasi bürosunun üzvü kimi ittifaq miqyaslı fəaliyyəti

Ulu Öndər Sonralar Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyətini Ümumittifaq miqyasında genişləndirmiş, «Ümumtəhsil və peşə məktəbi üzrə islahat komissiyasının sədri kimi 12 aprel 1984-cü ildə XI çağırış SSRİ Ali Sovetinin sessiyasında proqnostik bir çıxış edərək vaxtı çatmış problemləri qabartmış, onların həlli zərurətini irəli sürmüşdür.

BAM-ın tikintisi birbaşa H. Əliyevin nəzarətində idi

Rusiyada indi də onun xidmətlərini xatırlayırlar - Heydər Əliyev Novorossiysk şəhəri yaxınlığında "Admiral Naximov" teploxodunun qəzaya uğramasının səbəblərini araşdıran komissiyaya rəhbərlik edən zaman Sovet İttifaqının Siyasi Bürosu rəhbərliyinin nüfuzunu xilas etmişdi.

3. H.Əliyevin müstəqil Azərbaycanımıza rəhbərliyi dövrü

1991-ci il oktyabrın 18-də 70 il əvvəl itirilmiş dövlət müstəqilliyimizin bərpası ilə Azərbaycan tarixinin yeni bir dövrü müstəqil Azərbaycan Respublikası dövrü başlandı.

Çox keçmədən Azərbaycan rəhbərliyinin və onun Naxçıvandakı funksionerlərinin təzyiqinə baxmayaraq fərdi təqaüdçü, heç bir vəzifə və imtiyaza malik olmayan Heydər Əliyev 3 sentyabr 1991-ci il tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məclisi deputatlarının hamısının yekdilliklə səs verməsi və Muxtar Respublika əhalisinin dəfələrlə təkidli tələbi ilə Naxçıvan Muxtar Respublika Ali Məclisinə Sədr vəzifəsinə seçildi.

Heydər Əliyevin qayıdışı Azərbaycan xalqının itirilmiş inamını özünə qaytardı, sabaha, gələcəyə ümidini artırdı. Ümummilli lider "Mən buraya vəzifə üçün gəlməmişəm. Mən böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim" deyərək ömrünün qalan hissəsini də xalqının xilasına həsr edəcəyini bildirmişdir. Beləliklə, Azərbaycan dövlətçiliyinin müqəddəratı həll edildiyi 1993-cü ilin iyun günlərində dünya miqyaslı siyasi dövlət xadimi Heydər Əliyevi yenidən hakimiyyətə dəvət edən Azərbaycan xalqı parçalanıb dağılmaq və müstəqilliyini itirmək kimi dəhşətli fəlakətdən "QURTULDU".

Dünyada baş verən prosesləri özünəməxsus məntiqi təhlil süzgəcindən keçirən Ulu Öndərin yürütdüyü daxili və xarici siyasət ölkənmizin hər bir vətəndaşına azad yaşamaq və öz rifahını yüksəltmək üçün geniş imkanlar verdi. Heydər Əliyev idarəçiliyində iqtisadi inkişafın təmin edilməsi, ölkəmizin dünyaya inteqrasiyası, bazar iqtisadiyyatına keçidin sürətləndirilməsi və bu əsasda vətəndaş cəmiyyətinin formalaşması üçün geniş imkanların yaradılması prioritet istiqamətlərdən idi.

Ulu öndər bu istiqamətlərin reallaşması üçün konkret əməli tədbirlər görür, normativ-hüquqi sənədlərin qəbulunun təşəbbüskarı kimi çıxış edirdi. Bu baxımdan Prezidentin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixli fərmanı KİV-lərin müstəqil inkişafına və bununla da əslində vətəndaş cəmiyyəti quruculugunun sürətlənməsinə stimul vermiş oldu. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında"qanunun qəbul edilməsi də məhz Ümummilli Liderin ölkədə vətəndaş cəmiyyəti quruculuğuna olan qayğısının nəticəsi idi. Vətəndaş cəmiyyəti quruculuğunun digər şərtlərindən biri də təbii ki, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsidir. Konstitusiyamızda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan edilmişdi. Amma ümummilli liderin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının

təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il fərmanı ilə bu məsələyə diqqəti daha da artırırdı.

Dunya miqyaslı müdrik siyasətçimizin gərgin əməyi nəticəsində artıq 1994-cü ilin sonunda iqtisadi-siyasi islahatların uğuru üçün zəruri olan sabitlik bərqərar edildi. 1994-cü ilin mayında atəşkəs haqqında Bişkek pratokolu imzalandı. Həmin ilin sentiyabrında Prezisent Heydər Əliyev konsorsiumla 7,5 milyard dollarlıq ilk neft müqaviləsi imzaladı. "Əsrin müqaviləsi" adlanan bu hadisıdın sonraneft sə

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının və dini-etnik mənsubiyyətindən asılı olmayaraq ölkəmizdə yaşayan bütün vətəndaşlarımızın vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin məcmusunu, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azəbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə düşən öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiya kimi nəzərdə tutulur. Ulu öndər Dünya Azərbaycanlılarının I Qurultayında bu barədə demişdir: «Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir»[2, s. 219].

Yalnız torpağımızda yaşayan müxtəlif etnik və dini mənsubiyyətli insanlara ünvanlanmaqla kifayətlənməyib, coğrafi sərhəd və məkanların ayrıldığı dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı da bizimlə bir ideya-fəlsəfi, mədəni məkanda bütövləşdirən qüvvə də məhz "azərbaycançılıq" ideologiyasıdır. "Azərbaycançılıq" cəmiyyətimizin sosial-mədəni və siyasi nizamlanmasının, insanların mənəvi səfərbərliyi və vəhdətinin başlıca amilidir[8,s. 256].

Azərbaycançılıq milli inkişafın mədəni-tarixi təbəqəsi olmaqla, strateji inkişafın əsas yollarını və istiqamətlərini müəyyənləşdirir, milli dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin qorunmasında öz əksini tapır. Ərazi o zaman vətənə çevrilir ki, milli ruhla canlanmış olsun [5, s.225].

Yalnız torpağımızda yaşayan müxtəlif etnik və dini mənsubiyyətli insanlara ünvanlanmaqla kifayətlənməyib, coğrafi sərhəd və məkanların ayrıldığı dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı da bizimlə bir ideya-fəlsəfi, mədəni məkanda bütövləşdirən qüvvə də məhz "azərbaycançılıq" ideologiyasıdır. "Azərbaycançılıq" cəmiyyətimizin sosial-mədəni və siyasi nizamlanmasının, insanların mənəvi səfərbərliyi və vəhdətinin başlıca amilidir.

Qüdrətli dövlət qurucusu Heydər Əliyevin azərbaycançılığın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada ulu öndər üç tərkib hissəni xüsusi qeyd edirdi: dil, din, adət-ənənə və bunların milli şüur və milli psixologiyada oturuşmasından yaranan milli mentalitet. Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasıənı və inkişaf etdirilməsini ən mühüm vəzifələr sırasına aid edirdi. Çünki dövlətçiliklə milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Milli müəyyənliyi olmayan, millət formalaşmayan xalq milli dövlətçilikdən də uzaqdır. AMEA-nın müxbir üzvi S.Xəlilovun yazdığı kimi, "milli dövlət, bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən və daha çox dərəcədə milli-mənəvi dəyərlərin qorunması və nisbi müstəqil inkişafının təmin olunması məqsədi daşıyır. Heç bir dövlət başçısı, heç bir siyasi lider və hətta heç bir millətçi ziyalı dövlət quruculuğu və idarəçiliyi ilə yanaşı, milli ideologiyanın əsas istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə yeni mükəmməl elmi konsepsiyasının yaradılması və onun həyata keçirilməsi sahəsində Ulu Öndər qədər fədakarcasına çalışmamışdır".

Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş azərbaycançılıq bir tərəfdən, Azərbaycanda vahid milli-dövlətçilik hissiyyatının formalaşmasını, etnik-milli yetkinləşmə və bütövləşməni nəzərdə tutursa, digər tərəfdən, Azərbaycan dilinin bir dövlət dili olaraq inkişafını və ölkə miqyasında, bütün fəaliyyət sahələrində mövqeyinin möhkəmlənməsini nəzərdə tutur.

Ümummilli lider Heydər Əliyev milli ideologiyamızın əsas prinsiplərini müəyyənləşdirməklə bərabər, onların həyata keçirilməsinə şəxsən özü nəzarət edirdi ki, bu da onun bir milli lider kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşdığına dəlalət edirdi.

Ulu öndər nəinki Azərbaycan Dövlət quruculuğunun təməl daşlarını düzmüş, bu sahədə qarşıda duran perspektivləri müəyyənləşdirmiş, həmçinin onları həyata keçirə biləcək layiqli davamcı da yetişdirmişdi. Bu Şəxsiyyət Heydər Əliyev məktəbinin məzunu, Praqmatik siyasətci, Ümummilli Lderin ideyalarının həyata keçirilməsinin ən etibarlı qarantı olan möhtərəm prezidentimiz İlham Əliyevdir. Müasir dünyanın bu mürəkkəb və ziddiyətli zamanı axınında, dünyada ikili standart-ların, ayrı-seçkiliklərin hökm sürdüyü bir dövrdə ölkəmizdə qorunub saxlanılan stabilliyin, uğurlu inkişafın, nailiyyətlərin sükanını əlində möhkəm saxlayan Prezidentimiz xalqımızı daha yüksək firavanlıq hədəflərinə doğru aparmaqdadır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Əliyev H. Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. — Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997 — 136 s.
2. Əliyev H. Dinimiz xalqımızın mənəvi sərvətidir. Bakı: Qanun, 1999, 219 s.
3. Əliyev H. Tələbə gənclərlə görüşdə nitq. Təhsil millətin gələcəyidir. Bakı 2002, səh.233-237.
4. Əliyev H.Ə. Sovet Azərbaycanı. Bakı, «Azərnəşr», 1981,138 s.).
5. *Səlahəddin XƏLİLOV*,,Heydər Əliyev və müasir mərhələdə milli ideyanın təməl prinsipləri. Xalq qezeti 13 Dekabr 2011
6. Məmmədov A.B. Azərbaycan keçid iqtisadiyyatında yeni mülkiyyət münasibətlərinin formalaşması və reallaşması problemləri. Bakı, 1998, 342 s.
7. Rəbiyyət Aslanova. Müasir dövlət və dövlətşünaslıq elmi (Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü işığında). Bakı, Azərnəşr 2011, 440 səh.